Ədalət 2019.- 27 aprel.- S.16.

# Lənkəran Dövlət Humanitar Kollecində "Nəsiminin 650" illiyi qeyd edildi



**Cənab prezident İlham Əliyev 11 yanvar 2019-cu il tarixində Azərbaycan Respublikasında 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında sərəncam imzalamışdır.**

Azərbaycan xalqının çöxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin zəngin irsi bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsində mühüm əhəmiyyətə malikdir. 2019-cu ildə Nəsiminin anadan olmasının 650 illiyi tamam olur. Azərbaycanın ədəbi-mədəni fikir tarixinin bu əlamətdar hadisəsinin dövlət səviyyəsində layiqincə qeyd edilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" 2018-ci il 15 noyabr 689 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılmışdır. Nəsimi irsinin müasir humanitar düşüncənin tələbləri kontekstində aktuallığını, milli mədəni-mənəvi dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyətini nəzərə alınaraq 2019-cu il "Nəsimi ili" elan edilmişdir. Bu münasibətlə 25 aprel 2019-cu ildə Lənkəran Dövlət Humanitar Kollecinin akt zalında Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr edilmiş yaradıcılıq gecəsi keçirildi. Tədbirdə Kollecin direktoru dos. Ruslan Həmidov, direktor müavini Ülviyyə Rzayeva, şöbə müdiri Fikrət Kərimli, psixoloq Zülfiyyə Əliyeva, müəllimlərdən İlqar Əliyev, Əli Hüseynov, Səbirə



Sadıqova, Maya Muradova, Şaistə Mustafayeva, İlhamə Muradova, Aynur Əliyeva, Günay Abbasova,Sevinc Eyvazova iştirak edirdilər. Tədbiri giriş sözü ilə Ruslan müəllim açıq elan etdikdən sonra çıxışlar başlandı. Gecənin aparıcısı Kollecn III kurs tələbəsi, TGT-nın sədri Sumarə Bağırzadə Kollec tələbələrini ifalarında qəzəllər, mütəfəkkirlərin İmadəddin Nəsimi haqqında fikirlərini, onun haqqında deyilmiş şerlər və qəzəllər söylənilməkdən ötrü səhnəyə dəvət etdi. Tələbələrdən Tahirə Məmizadə, Aysel Hüseynli, Zəhra Tağızadə, Jalə Quliyeva, Nərmin Əhədova, Elnarə Miriyeva, Adil Bünyatzadə, Anar İmanov və başqaları çıxışları yadda qalan oldu. Dil ədədbiyyat müəllimlərindən Ülkər Bəşirova və Məsmə Mikayılova Nəsimi yaradaıcılığına dair fikirlərini söylədilər. Tədbirin sonunda videoslayd nümayiş olundu.

**Cəmil Quliyev**
**Kollecin müəllimi, t.ü.f.d.**